*hekayə*

# QƏRİB QADIN

Dünən axşamdan başlayan xəzri səhər ertədən daha da gücləndi. Bir qoşun külək şəhərin canına düşüb, vıyıltıyla hər tərəfi ələk-vələk eləyirdi. Güclü yellər havalanıb göydə bulud topalarını qovur, yerdə ağacların budaqlarını hiddətlə döyəcləyirdi. Böyük çillənin ömrünə az qalsa da qış girəndən bəri Bakıya bircə dəfə də olsun qar yağmamışdı.

Dayanacaqda marşrut avtobusunu gözləyən adamların arasında sadə geyimli qarabuğdayı bir qadın həyəcanla dənizə baxıb dodağının altında nəsə pıçıldıyırdı. Bilmək olmurdu ki, dua edir, yoxsa dənizdə dalğaları şahə qaldıran küləyin qarasınca deyinir...

Hər səhər işə gedəndə adətən, dayanacaqda eyni adamlarla rastlaşıram. Görkəmindən qəriblik, gözlərindən qəm-qüssə yağan bu qadını isə "bizm dayanacaqda" ilk dəfə görürdüm. Ənliksiz-kirşansız solğun çöhrəsi, başına bağladığı göy güllü yaylıq və ayağındakı alçaqdaban ayaqqabı onu yaşından xeyli qoca göstərirdi. Hərdən o, dənizdən gözlərini çəkib yan-yörəsinə baxır, elə bil kimisə axtarırdı. Avtobus dayanacağa yaxınlaşanda birdən qərib qadın bahalı xəz palto geyinmiş orta boylu gənc bir xanıma yaxınlaşdı:

-Başına dönüm ay qızım,- deyə o, yaşına uyuşmayan gümrah səslə hündürdən dilləndi, - Allaha da xoş gedər, məni də öz biletinlə avtobusa mindirsən...

Bilet deyəndə yəqin o, nəqliyyatda gediş-gəliş kartını nəzərdə tuturdu. Qərib qadın ovcundakı xırda pulu gənc xanıma uzatdı:

- Başına dönüm, götürginən...

-Yox, yox, ay ana, vallah götürmərəm, - deyə gənc xanım nəzakətlə onun əlini geri qaytardı.

Bu məqamda avtobusun ön qapısı açıldı, gənc xanım dönüb qərib qadına:

-Buyurun, anacan, - dedi və onu özündən qabağa buraxdı.

Anası yaşında olan qadın da görünür həm gediş haqqını ödədiyinə, həm də ona ana dediyinə görə gənc xanıma ürəkdən dua edə-edə avtobusa mindi:

-Allah köməyin olsun, qızım, səni görüm, dünyada heç neynim - necəliyim deməyəsən! Ağbaxt olasan, getdiyin qapılar üzünə xeyirliyə açılsın...

Gənc xanım məmnunluqla gülümsədi və avtobusa minən kimi cəld addımlarla salonda arxaya doğru irəliləyərək gözdən itdi. Avtobus yola düşəndə qərib qadın sürücüyə yaxınlaşıb soruşurdu:

-Qadan alım, ay oğul, məni avtovağzala gedən avtobus ayağında düşürərsən?

Sürücüdən səs çıxmadı. Bu zaman salona dayanacaqları elan edən qadın diktorun səsi yayıldı: "Diqqət, avtobus hərəkətdə olarkən sürücünün diqqətini yayındırmaq, ona müxtəlif sullar vermək olmaz..."

Qərib qadın əvvəlcə sağa-sola boylandı, səsin hardan gəldiyini ayırd edə bilməsə də elanı eşidən kimi susdu. Lakin onun qəmli baxışları sanki dil açıb daxilində keçirdiyi narahatçılığından danışırdı.

Sürücü qadının sualını cavabsız qoysa da, güzgüdə salona göz gəzdirib mikrafonla bildirdi ki, cavanlardan biri durub yerini ona versin!

Sağ olsun, qadına öz yerini verən cavan oğlan həm də gözlənilməz təklifi ilə onu ruhuna hakim kəsilmiş narahatçılıqdan qurtardı:

-Ay nənə gəl otur, heç darıxma, mən səni aparıb avtovağzalda istədiyin avtobusa mindirərəm.

Qadın nəvazişlə dilli - dilavər oğlanı süzdü.

- Allah köməyin olsun, ay bala, mənə görə işindən-gücündən qalarsan axı...

- İş-güc nə gəzir ay nənə,- deyə cavan oğlan çiyinlərini çəkdi, - elə-belə şəhərə gəzməyə çıxmışam. Gördüm ki, hava soyuqdur mindim bura...

Qərib qadının solğun üzünə birdənbirə işıq gəldi.

-Boyuva qurban olum, ay bala, Allah səni dar-damanda qoymasın!

Soyuqdan daldalanmaq üçün avtobusu özünə sığınacaq seçmiş cavan oğlanı qadın sanki isti sözləri, mehriban baxışları ilə isidirdi... Çox çəkmədi oğlan istilənib dəri gödəkçəsinin zəncirbəndini açdı.

Qadınla üzbəüz oturmuş yaşlı bir kişi həm cavan oğlana, həm də qərib qadına baxıb dedi:

- Hə, bu həftə hava çox küləkli olacaq, dənizdə fırtına qopacaq...

Qadın avtobusun pəncərəsindən yenə dəniz tərəfə boylandı. Elə bil küləkli havalarda dənizin necə heybətli, necə müdhiş olduğunu ilk dəfə eşidirdi.

- Hələ bu harasıdır, qarşıdan kiçik çillə gəlir,- deyə kişi sözünə davam etdi,- adı kiçik olsa da hikkəsi böyük, zəhmi ağır olar kiçik çillənin...

Qadın da başını tərpədərək kövrək səslə onun sözünü təsdiq etdi:

-Düz deyiblər, kiçik çillə haynan gələr, vaynan gedər...

Kişi də pəncərədən Xəzərə boylandı, dənizin hər üzünə bələd olan təcrübəli adamlar kimi:

- Külək bu dənizdə çoxlu canlar alıb... - dedi və üç-dörd il əvvəl Xəzərdə onlarla



neftçinin həyatına son qoyan fırtınadan bəhs etdi.

Qadın kişinin bu sözünə bənd imiş kimi doluxsundu, yaylığının ucuyla göz yaşını sildi. Sonra toxtayıb yanaşı oturduğu qadının rus olduğunun fərqinə varmadan nəzərlərini ona dikib:

-Belə küləkli havada mənim oğlum da dənizə işləməyə gedib, -dedi, - elə bil quruda başına iş qəhət idi...

Nə düşündüsə, ah çəkib yavaşdan dedi:

-Allah hamının balasını qəzadan saxlasın, mənim balam da onların içində...

Rus qadın başını azca yana əyib tərpətdi. "Yəni səni başa düşürəm"

Qərib qadın özünə yaxşı həmsöhbət tapmış adamlar kimi sözünə davam etdi:

-Heç bircə həftə deyil, rayondan gəldiyim. Oğlum avtovağzalda qabağıma çıxıb, məni bəhbəhlə təzə evinə gətirdi. Sağlığına qismət, ger-geniş ev-eşiyi var. Mən də əlimə keçən ayın-oyundan paypuş gətirmişdim nəvələrimə. Bu gün səhər tezdən oğlum dənizə getdi.

Cavan oğlan, yaşlı kişi, rus qadın və mən ona diqqətlə qulaq asırdıq.

Rus qadın yarım əsirdən çox Bakıda yaşasa da elə rusca soruşdu:

-On neftyanik çto li?

Qərib qadın yalnız indi onun rus olduğun bildi və heyrətlə bizim üzümüzə baxdı.

Çavan oğlan da tələsik xabər aldı:

-Nənəcan sizin oğlunuz neftçidir?

Qərib qadın:

-Hə, bala, oğlum dənizdən nöyüt çıxarır. On beş gün dənizdə olur, on beş gün evdə. Bu gün işə gedəndə arxasınca su atdım. "İşin avand olsun, oğlum!"- dedim.

Ani susdu, birdən düşündüsə onun yanağından üzü aşağı iki damla göz yaşı yuvarlandı. Mənə elə gəldi indicə o, ağlayıb hönkürəcək. Amma qadın özünü ələ alıb təmkinlə sözünə davam etdi:

-Oğlum gedəndən sonra gəlin mənə tərs üzünü göstərdi, özüm üçün dəyişək gətirdiyim pal-paltarımı üstümə atıb, "yıryığışını elə, get evinə" dedi. Bax, beləcə dopdoğmaca oğlumun evində beşcə gün qalmağı gəlin mənə çox gördü...

Bayaq dayanacaqda onu ilk dəfə görəndə dənizə baxıb həyəcan keçirdiyinin səbəbi indicə mənə aydın oldu. Küləkli havada dənizdə çalışan oğlunun taleyindən nigaran ananın dərdinin üstünə dərd calanmışdı. Şəhərə nabələd olması belə onun nainsaf gəlnini rəhmə gətirməmişdi. Soruşdum:

-Bəs gəlin sizi evdən qovanda nəvələriniz ona nə dedilər?

-Nəvələrimin biri tələbədir, o biri məktəbli. Səhər tezdən dərsə gedirlər.

- Darıxma, ay ana, vaxt gələr onu da öz oğlunun evindən gəlini qovar...- bunu deyən kişi nəzərlərini müdrükcənə qadına zilləyib fikrini belə tamamladı, - Allah mütləq beləsinin qabağına özü kimisini çıxaracaq! İndi ailə qurandan sonra çox oğulların evi ata- anaları üçün qadağan olunmuş zonaya dönür...

Qərib qadın başını buladı, sonra dərindən köks ötürüb oğlunu qınayırmış kimi dedi:

-Əslini-kökünü bilmədiyin yerdən qız alan adam, ana üzünə də həsrət qalar, ata ocağına da...

Cavan oğlan dedi:

- Bəs ay nənə oğlunun mobil telefonu yoxmu zəng edəsən?

-Mən belə şeyləri bilmirəm ay bala, ömrüm boyu görüb-götürdüyüm ev telefonu olub. Ona da oğlum özü arada-sırada zəng edir.

... Araya ani sakitlik çökdü. Sanki hamı o qərib, incik qadına təsəlli vermək üçün ürəyinin dərinliyində söz axtarırdı. Mənsə tələbə vaxtlarımda eynən bu yaşda bir dilənçi qadına rast gəldiyim soyuq qış gününü xatırladım. Rayondan qış imtahan sessiyasına gəlmişdim. Nənəm iki-üç ayın "qocalıq pulunu" qurşağından çıxarıb mənə vermişdi ki, on günlük sessiya müddətində özümə kirayə ev tutum.

Kənarda kirayə ev axtarmağa tənbəllik edirdim. Rast gəldiyim o qadın isə universitetin yaxınlığında, Kommunist küçəsinin tinində dayanmışdı. Gəlib-gedənlərə bir kəlmə söz deməndən pərişan halda, utana-utana əl açmışdı. Nədənsə, ağlıma gəldi ki,onun evi bura yaxın yerdə, bəlkə də İçərişəhərdədir. Qərara gəldim ki, ev kirəsi üçün gətirdiyim pulları bu qadına verim. Həm onun soyuq havada dilənçilik etməkdən canı qurtarar, həm də mən ali məktəbin yaxınlığında özümə kirayə ev taparam.

O, məni dinləyib, sakitcə "yox" dedi, "məni oğlumla-gəlinim evimdən çıxarıblar. Şikayətimə məhəl qoyan olmadı. İndi balaca bir zirzəmidə qalıram. Gündüzlər burda dayanıb gündəlik yeməyimin pulunu birtəhər qazanıram..."

Mən onun nəmli gözlərinin içinə baxdım. Çox məyus oldum. Əlcəksiz əlləri titrəyirdi, qar kimi bəmbəyaz birçəkləri şalının altindan çıxmışdı. Əgər nənəm kimi vaxtı-vaxtında həna qoysaydı, saçları tünd qırmızı rəng alardı.

O gün Bağdagül nənəmin ev kirəsi üçün verdiyi pulları dilənçi qadının ovcuna qoyub tez uzaqlaşdım. Həmin qış günləri Alatavada "gecəqondu" deyilən həyət evində yaşayan qohumumgilə qaldım. Universitetə gəlib-gedəndə o qadını həmişə dayandığı tinində görmürdüm. Düzü, ürəyimdə buna sevinirdim də...

Aradan gör nə qədər illər ötüb keçib. Bağdagül nənəm də, o qadın da çoxdan dünyalarını dəyişiblər.

... İndi isə avtobusda bu ağbirçək qərib qadının hekayətini eşidib dərin düşüncələrə qərq olmuşdum. İlahi, bu qadın necə də mənim Bağdagül nənəmə və o vaxt Kommunust küçəsində dilənən o qarıya oxşayırdı...

O qədər fikrə dalmışdım ki, avtobus çoxdan iş yerimə yaxın dayanacaqdan ötüb keçmişdi. Növbəti dayanacaqda düşüb geri piyada geri qayıtmalı oldum. Dənizdən soyuq küləklər əsirdi. Nədənsə bu soyuq havada qızınmaq üçün avtobusu sığınacaq seçən o cavan oğlanı xatırladım. Əmin idim ki, söz verdiyi kimi o, qərib qadını aparıb avtovağzaldan yola salacaqdı.

...İşə çatanda radioda xəbər verdilər ki, sabah havanın kəskin dəyişməsi ilə bağlı dənizdəki neftçilər təcili sahilə çıxarılacaq.

Yenə o qərib ananı, qərib qadını düşündüm. Yəqin neftçi oğlu evə dönüb anasını görməyəndə çox pərt olacaqdı. Görəsən anasını soruşanda, həyat yoldaşı ona nə cavab verəcəkdi? Gözlərimin önündə qaynanasını evdən qovan o insafsız gəlin canlandı. Çox güman ki, ərinin sualına heç nə olmamış kimi o: "Anan çox darıxırdı, rayona getdi" - deyə biganə cavab verəcəkdi.

Bəs görəsən ananın neftçi oğlu arvadının bu yalanına inanacaqmı?

Xəyalımda canlandırdığım oğul da dərhal anasına zəng edirdi.

Ana da oğlunun, nəvələrinin xatirinə ürəyinə daş basıb tittək səslə:

-Hə, bala gəlin düz deyir, rayondakı ev-eşiyimiz üçün darıxırdım, -deyəcəkdi...

Sonra da dəstəyi qoyub hönkürtüylə ağlayacaqdı...

**30 yanvar 2019**

***Nurəddin ƏDİLOĞLU***

